UOT 94 (479.24)

# MİRZƏ İBRAHİMOV VƏ AZƏRBAYCAN MUSİQİSİNDƏ XƏLQİLİK MƏSƏLƏSİ

**K.Q.ƏLİYEVA**
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
*konulqabilqizi@mail.ru*

*Məqalədə Azərbaycan milli musiqisində xəlqiliklə, klassik irs və novatorluqla bağlı mübahisələrə M.İbrahimovun münasibəti araşdırılmışdır. Ədibin Ü.Hacıbəyli və Bülbülün zəngin yaradıcılıq irsinin təhlili əsasında xəlqiliklə novatorluğun bir-birinə qarşı qoyulmasının yanlış olduğu, bu iki cəhətin bir-birini tamamladığı və Azərbaycan musiqisini yüksək zirvələrə qaldırdığı qeyd edilmişdir.*

**Açar sözlər:** xalq, musiqi, milli dəyərlər, Ü.Hacıbəyli, Bülbül, xəlqilik, novatorluq, muğam, xanəndə.

Görkəmli yazıçı M.İbrahimov milli musiqinin xalqın həyatında çox böyük rol oynaması, xalqın həyatını əks etdirməsi və xalq həyatının bir parçası olması haqqında bir çox əsərlərində bəhs etmişdir. Onun Azərbaycan musiqisinin keçmiş tarixi haqqında, eyni zamanda müasiri olduğu dövrdə qazandığı uğurlar haqqında dəyərli fikirləri vardır. Xüsusən ədibin milli musiqimizin dərin biliciləri və təbliğçiləri olan Üzeyir Hacıbəyli və Bülbülün yaradıcılığını xalqımızın çox dəyərli mənəvi sərvəti kimi yüksək qiymətləndirməsi diqqətəlayiqdir.

Müəllif Azərbaycan musiqisinin bu nəhəng simalarının yaradıcılıq nailiyyətlərini təqdir etməklə yanaşı, yaşadığı zamanda musiqidə xəlqilik məsələsi ətrafında gedən mübahisələrə də öz münasibətini bildirməkdən çəkinməmişdir. “Bir-birinə bağlı iki keyfiyyət” adlı məqaləsində musiqi sahəsində xəlqiliklə bağlı diskussiyalardan bəhs edərək yazmışdır: “Zahirdə heç kəs xəlqiliyin əleyhinə çıxmır, hamı onun əhəmiyyətini qeyd edir. Lakin xəlqiliyi anlamağa, şərh etməyə, zəngin xalq musiqisindən və milli klassik irsdən istifadə etməyə gələndə cəbhələr ayrılır, bir-birini rədd edən fikirlər irəli sürülür. Bəziləri Azərbaycan xalqının illər ərzində yaratdığı xalq havalarını və muğamları kifayət qədər qiymətləndirmir, necə ölməz bir xəzinə olduğunu başa düşmür. Hətta onları “köhnə”, “primitiv” əsərlər kimi gözdən salıb novatorluğa qarşı qoyanlar da tapılır” [6, 229].

Müəllif Üzeyir Hacıbəyli kimi ölməz bir sənətkarın yaradıcılığını nümunə göstərərək bu fikirlərin yanlışlığını sübut etmiş, iftixarla qeyd etmişdir ki, onun bütün əsərləri aydın milli formaya, milli koloritə malikdir, Azərbaycan xalq musiqisinin və klassik muğamlarımızın zəngin xəzinəsinə əsaslanır: "Ü.Hacıbəyov bu xəzinəni həssaslıqla öyrənir, ondan həqiqi yaradıcı sənətkar kimi istifadə edirdi. Buna görə də onun yaradıcılığı musiqimizin inkişafında yeni bir dövr açdı" [6, 230].

Doğrudan da, Ü.Hacıbəylinin əsərləri harada çalınırsa-çalınsın, salondakı dinləyicilərə Azərbaycanın dilbər guşələrini, Azərbaycan xalqının qəlbinin dərinliklərindən qopub gələn nəcib arzuları, yüksək bəşəri idealları xatırladır, xoş ovqat aşılıyır. Dinləyənlər uzun müddət bu musiqinin sehrindən qurtula bilmirlər. Daha sonra M.İbrahimov fikrini davam etdirərək, Üzeyir Hacıbəylini iyirminci əsrin böyük novator sənətkarlarından biri kimi xarakterizə etmişdir. Onun musiqisinin keçmiş Sovetlər İttifaqının hər yerində ruh yüksəkliyi oyatması, insanların ürəyini oxşaması, bütün xalqlar tərəfindən sevilməsi haqqında iftixarla bəhs etmiş və bununla da əsaslandırmışdır ki, klassik irsdən və xalq yaradıcılığı ənənələrindən istifadə etmək novatorluğa mane olmur, kömək edir: "milli forma və milli xüsusiyyətlər həqiqi sənət əsərinin ümumbəşər mədəniyyəti xəzinəsinə daxil olmasına maneə və hasar deyildir, əksinə, yoldur" [6, 230].

M.İbrahimov sovet dövründə Moskvada keçirilən incəsənət dekadaları və baxışlarında Azərbaycan milli musiqi ansanbllarının dəfələrlə böyük müvəffəqiyyətlər qazanmasının şahidi olmuşdur. O, adı çəkilən məqaləsində Gənclərin altıncı ümumdünya festivalında başqa xalqların kollektivləri kimi, Azərbaycan mahnı və rəqs ansamblının ifalarının da gurultulu alqışlarla qarşılanmasını məmnunluqla qeyd etmiş və bu uğurun səbəbini belə izah etmişdir: "Çünki öz gözəl siması, gözəl musiqisi, öz mükəmməl ifa üsulları, öz yaraşıqlı geyimi vardı. Bu da çoxmillətli tamaşaçılara zövq verirdi. Əgər bizim ansambl nəyi isə təlqin etmiş olsaydı, söz yox ki, tamaşaçılar soyuq qarşılayaq deyərdilər: bunu görmüşük" [6, 230-231].

Üzeyir Hacıbəyli yenilik – novatorluq yaratmaq, orijinallıq göstərmək həvəsilə xalqdan, xalq yaradıcılığından ayrı düşən, "kal uydurmalarını" yüksək sənət əsəri kimi qələmə verməyə çalışanları tənqid edərək qeyd edirdi ki, xalqın mənəvi sərvəti tükənməzdir. M.İbrahimov bununla bağlı böyük bəstəkarın aşağıdakı mülahizəsini xüsusi qeyd etmişdir: "Dahi sənətkarlar xalqdan öyrəndiyi, xalqa arxalandığı üçün sənətin zirvəsinə çıxa bilmişlər. Boş uydurmalar və fantaziyalar əsasında yaranan əsər camaatın, xalqın zövqünü oxşamaz, onun xoşuna gəlməz. Yaxşı bir şey yaratmaq istəyənlər yaratmağı xalqdan öyrənməlidirlər" [4, 102].

Görkəmli ədib Üzeyir Hacıbəylinin musiqi yaradıcılığının təhlilinə həsr etdiyi "Sənətin qüdrəti" adlı məqaləsində bu məsələyə aydınlıq gətirmiş, böyük bəstəkara ümumxalq sevgisinin əsas səbəbini məhz bu cəhətdə görmüşdür: "Üzeyir sənətinin qüdrət mənbəyi xalqdır, xalq yaradıcılığıdır. Onun əsər-

lərində dilə gələn, danışan Azərbaycan xalqının ruhu və qəlbidir" [4, 102].

M.İbrahimov yüksək bədii ideyalar uğrunda mübarizə aparır, xalqın anlayıb sevəcəyi, "minlərlə adamın ürəyini titrədən" əsərlər yaradılmasını istəyirdi. O, eyni zamanda buna nail olmağın çətinliklərini də özünəməxsus tərzdə qeyd edirdi: "... böyük fikirlər və canlı ehtiraslarla yaşamayan sənətkar simləri boşalmış tar, dilləri xarab olmuş piano kimidir. Əsl sənətkarın ürəyi daim köklənmiş simdir" [5, 143]. Bu bənzətmədə yazıçının musiqi və musiqi alətləri haqqında çox dərin məlumata malik olması əks olunmşdur.

Xalq musiqisinə son dərəcə diqqətlə yanaşmağı, bu zəngin xəzinəni diqqətlə toplamağı, qoruyub saxlamağı yazıçı çox vacib vəzifə hesab edirdi. Onun musiqiçilərə bu tövsiyyəsi xüsusi əhəmiyyət kəsb edirdi: "Biz xalq havalarını, muğamları yığıb saxlamalı, çox çalınan vallara yazmalı, notlara keçirlməli, radioda və konsertlərdə çalmalıyıq. Yəni onları saxlayıb gələcək nəsillərə çatdırmaq üçün hər vasitədən istifadə etməliyik" [6, 232].

Görkəmli ədib "Azərbaycan Bülbülü" adlı məqaləsində musiqinin və musiqiçinin Azərbaycan xalqının həyatında çox qədim zamanlardan böyük əhəmiyyətə malik olduğunu qeyd etmişdir. O, xalq musiqisinin ifaçılarının: nəğməkarların, xanəndələrin xalq arasında böyük hörmət və nüfuz qazandığını, ustad nəğməkarın adının həmişə xalq qəhrəmanlarının, böyük şairlərin, alimlərin adı ilə yanaşı çəkildiyini bildirmişdir: "Xalq toylarda, bayramlarda nəğməkarı məclisin yuxarı başında oturtmuşdur. O, yaxşı səsi, gözəl ifaçılıq qabiliyyətini şairliyə bərabər tutaraq "səs deyil, vergidir" – deyib nəğməkarlara olan məhəbbətini bildirmişdir. Bu məhəbbət təbii və qanunidir. Çünki həqiqi çalğıçılar və xanəndələr taleyini xalqa bağlayır, xalqın həyatını yaxşılaşdırılmasına, mübarizəsinə kömək edir, müdrik və gözəl sənəti ilə yasını-kədərini dağıdırdı. ... xalqın fikirini işıqlandırır, ürəyini sevinclə doldururdu" [7, 304].

M.İbrahimov xüsusi qeyd etmişdir ki, öz sənətinə ciddi tələbkarlıqla, məsuliyyətlə yanaşan əsl xanəndələr və digər musiqiçilər də möhkəm şəkildə ədəb-ərkan qaydalarını gözlər, geyimlərinin səliqəsinə, zahiri davranışlarının nəcibliyinə diqqət yetirər, ifaçılıqda da daha əvvəldən qərarlaşmış qayda-qanunlara əməl edərdilər. Belə sənətkarlar ifa etdikləri hər bir musiqi nümunəsini bitkin şəkildə çatdırmağa çalışır, əxlaqi, fəlsəfi mənası dərin olan qəzəlləri, bayatıları, gözəlləmələri oxuyar, şit, bayağı, dayaz mənalı sözlərdən qaçardılar [7, 305-306].

Yazıçının "əsl xanəndə və çalanlar" haqqında bu düşüncələri Aşıq Ələsgərin aşıqlar, bütövlükdə musiqiçilər qarşısında qoyduğu tələblərlə tam uyğundur, xarakterikdir. Ustad sənətkar el-el, oba-oba gəzərək aşıqlığı özünə sənət seçən adamlardan "yaxşı hörmət ilə, təmiz ad ilə" yaşamağı, "ağır əyləşməyi, doğru danışmağı" tələb edirdi. Aşıq Ələsgərin fikrincə, əsl xalq musiqiçisi "hər elmdən gərək xəbərdar", "gözü tox, könlü təmiz" olmalı, yaxşıya, pisə qiymət qoymağı bacarmalıdır [2, 145,192,196,233,234,296]. Öz yaradıcılığında humanist ideyaları tərənnüm edən, bu yüksək pirinsipləri qanında və canında yaşadan böyük aşıq öz zəmanəsini doğru və həqiqətdə olduğu kimi

əks etdirməyə çalışmışdır.

"Üzeyir məktəbi"nin yetirməsi Fikrət Əmirov da təqribən yüz il sonra da əsil musiqiçi üçün bu keyfiyyətləri vacib şərt hesab edirdi. Azərbaycanın görkəmli bəstəkarı yazırdı: "sənətkarın şəxsiyyəti ön planda durmalıdır. Əsər müəllifin bütün mənəvi aləmindən süzülüb gəlir; şəxsiyyətin böyüklüyü, paklığı, alicənablığı, ümumiyyətlə, ləyaqəti və sənət qüdrəti yaradıcılığında hökmən əks olunur. Sənətlə şəxsiyyəti bir-birindən ayrı təsəvvür etmək qeyri-mümkündür. Bu iki mühüm keyfiyyət vəhdətdə olmalıdır. Yalnız bu halda əsl mənada böyüklükdən, dahilikdən söhbət gedə bilər [3, 142]".

M.İbrahimov Azərbaycanın ustad xanəndəsi Bülbül Məmmədovun bir nəğməkar kimi ən güclü cəhətinin sənətimizin klassik istiqamətini davam etdirməsində, Azərbaycan musiqisinin mütərəqqi milli ənənələrə əsaslanaraq vokal sənətini yeni yüksək zirvəyə qaldırması olduğunu göstərmişdir. Görkəmli ədib qeyd edirdi ki, "Bülbül ilk gündən doğma xalqının sənətindən, vəteninin təbiətindən, gözəlliyindən ilham almışdır. ... rus musiqi klassikasını, İtaliya, Almaniya və başqa xalqların musiqisini öyrənməklə, heç də öz kökündən – Azərbaycan klassik və xalq musiqisindən uzaqlaşmamışdır" [7, 305, 307].

Maraqlıdır ki, M.İbrahimovun Bülbülün yaradıcılığına verdiyi yüksək qiymət görkəmli rus sovet bəstəkarı D.Şostakoviçin "əla musiqiçi" kimi xarakterizə etməsi ilə səsləşir. Sovetlər Birliyinin hər yerində musiqinin inkişaf səviyyəsindən xəbərdar olan bu görkəmli mütəxəssisin fikrinə görə, Azərbaycan bəstəkarlarının bəxti onda gətirib ki, onların yaratdıqları operaları, mahnı və romansları ifa edib yayan Bülbül kimi müğənni, Niyazi kimi istedadlı dirijorun başçılıq etdiyi simfonik orkestr fəaliyyət göstərir [19, 243].

M.İbrahimov "Xalqın böyük bəstəkarı" adlı məqaləsində Üzeyir Hacıbəylini Azərbaycan incəsənəti və mədəniyyəti tarixində nadir sima kimi xarakterizə etmişdir: "Bir bəstəkar kimi onun yaratdıqları o qədər böyük və o qədər əhəmiyyətlidir ki, yaşadığı cəmiyyəti valeh etmiş, müasirlərinin bütün diqqətini özünə cəlb etmişdir" [8, 346]. Burada da Üzeyir Hacıbəyli haqqında ədibin fikri ilə D.Şostakoviçin mülahizələri üst-üstə düşür. Görkəmli rus sovet bəstəkarı qeyd etmişdir ki, əsrin əvvəlində Azərbaycan musiqisinin klassiki Üzeyir Hacıbəyovun ilk opera və musiqili komediyaları ilə bu respublikada professional musiqinin inkişafı başlanmışdır [19, 242].

Ü.Hacıbəyli 45 ildən artıq bir müddətdə fasiləsiz olaraq ustad sənətkarlara və yüksək vətəndaşlıq duyğusu olan şəxslərə məxsus bir ciddiyyətlə, müstəsna bir əzmkarlıqla yorulmadan Azərbaycan musiqisini inkişaf etdirmiş, respublikamızda əsrin tələblərinə uyğun yeni, demokratik musiqi formalarının, o cümlədən operanın və operettanın, musiqili komediyanın əsasını qoymuş, həm də bunu klassik vüsət və parlaqlıqla etmişdi. Onun yaradıcılığında dram əsərləri, felyetonlar, elmi-publisistik xarakterli məqalələr, dərsliklər yazılması, rus dilindən gərəkli tərcümələr edilməsi də mühüm yer tutmuşdur. Bununla belə, M.İbrahimovun fikrincə, Ü.Hacıbəylinin ən böyük xidməti Azərbaycanda müasir ruhlu, müasir şəkilli musiqi təhsilini tətbiq etməsi,

müasir musiqi mədəniyyətindən və musiqi formalarından baş açan hazırlıqlı kadrların yetişdirilməsi ilə məşğul olması, musiqi kollektivlərinə, musiqi məktəblərinə rəhbərlik etməsi, ictimai işlərdə fəal çalışması, klassik musiqini və xalq musiqisini uzun illər ərzində dərindən öyrənərək yeni Azərbaycan musiqisinin nəzəri əsaslarını yaratması olmuşdur [8, 347].

Görkəmli bəstəkar Fikrət Əmirov da "Üzeyir məktəbi" adlı məqaləsində bu cəhəti xüsusilə qabartmış, gənc musiqiçilərin ərsəyə gəlməsində misilsiz xidmətini qeyd etmişdir: "Üzeyir Hacıbəylinin gənclərə münasibətində mən həmişə təmkinli bir qətiyyət, doğma bir tələbkarlıq duymuşam. ... Mən Üzeyir müəllimdən xalq musiqisinin paklığını mənimsəmişəm ... Üzeyir Hacıbəyli sənətinin Azərbaycan bəstəkarlarına nə verdiyini tam ifadə etmək üçün mən yalnız belə deyə bilərəm: "Biz hamımız Üzeyir məktəbindən çıxmışıq" [3, 143].

Üzeyir Hacıbəyli bədii üslubu, həm musiqi, həm də ədəbin yaradıcılığının özünəməxsus xüsusiyyətləri içərisində başlıca cəhətin xəlqilik olması ön plana çıxır. M.İbrahimovun düşüncəsinə görə, onun bütün yaradıcılığının ruhu, canı xəlqilikdir: "Üzeyir yaradıcılığının bütün başqa ünsürlərini, hətta realizminin də xüsusiyyətlərini müəyyən edən budur. Xəlqilik çox qiymətli keyfiyyətdir. Bizcə, onun əsərlərinin xalq tərəfindən bu qədər sevilməsinə, kütlələr arasında geniş şöhrət qazanmasına, sənətinin insanı heyran buraxmasına səbəb məhz bu keyfiyyətdir" [8, 349].

Görkəmli ədib qeyd etmişdir ki, opera yazmaqla Üzeyir Hacıbəyli Azərbaycan ictimai mühitində və incəsənətində böyük navator kimi çıxış etmiş, tam bir inqilab yaratmışdır. Bu novatorluğun ən müvəffəqiyyətli cəhəti tamamilə klassik irsə əsaslanmasında, həm ədəbi, həm də musiqi yaradıcılığı cəhətdən xalqın min illər ərzində yaratdığı ənənələrə söykənməsində idi.

Üzeyir Hacıbəylinin bədii axtarşlarının və bütün yaradıcılığının zirvəsini heç şübhəsiz 1937-ci ildə qələmə aldığı məşhur "Koroğlu" operası təşkil edirdi. Bu opera bəstəkarın dünyagörüşünün milli mahiyyətini, fantaziyasının və istedadının qüdrət və əzəmətini əks etdirirdi. Xəlqilik, vətənpərvərlik ideyaları ilə yoğrulan "Koroğlu" operası təkcə gözəl musiqi əsəri deyildi, həm də klassik musiqiyə, xalqın tarixinə, el ədəbiyyatına, folkloruna yaradıcı şəkildə yanaşmağın, onlardan müasir dövrün tələb və prinsiplərinə uyğun tərzdə bəhrələnməyin örnək sayılacaq nümunəsi idi. M.İbrahimov operanın inqilabi pafosla dolu olan məndəricəsinin parlaq, bədii boyalarla əks olunduğunu, musiqinin isti xalq nəfəsini əks etdirməsini, gözəl milli koloritini, son dərəcə orijinallığını, aydınlığını, şeirin və melodiyanın zənginliyini xüsusi vurğunluqla qeyd etmişdir. Görkəmli ədib bir qədər də irəli gedərək "Koroğlu" operasını Azərbaycan incəsənətinin fəxri və şah əsəri [8, 365] kimi qiymətləndirmişdir.

Əlbəttə, böyük bəstəkar müxtəlif musiqi kollektivləri, xor dəstələri, çalğıçılar ansanblı, musiqi məktəbləri olmadan Azərbaycan musiqisinin geniş yolda, xalqın artan mənəvi tələblərinə müvafiq ölçüdə inkişafını təsəvvür etmirdi. Ona görə də, Sovet hakimiyyətinin ilk illərindəcə Azərbaycan konser-

vatoriyasının, onillik musiqi məktəbinin, Bakıda və Gəncədə filarmoniyaların, Opera teatrının yaradılmasında yorulmadan, böyük həvəslə iştirak etmiş, Azərbaycan xalq musiqisi və havaları ansanblı yaratmış, müxtəlif musiqi və xor dəstələri təşkil etmişdi. O, həm də musiqi dərsləri deyir, professional musiqi təhsilini inkişaf etdirmək üçün Azərbaycan musiqisi əsasında ədəbiyyat yaradılmasına çalışır, eyni zamanda Azərbaycan musiqisinin nəzəri əsaslarını tədqiq edirdi.

M.İbrahimov "Üzeyir Hacıbəyov sənət və sənətkarlıq haqqında" adlı məqaləsində görkəmli bəstəkarın Şərq oriyental musiqisini tamailə köhnəlmiş, primitiv bir şey kimi qələmə verənlərə qarşı barışmaz mübarizə aparmasından da iftixarla bəhs etmişdir [9, 385]. Yazıçı qeyd etmişdir ki, xüsusən XX əsrin ilk onilliklərində Şərq xalqlarının musiqisinə, incəsənətinə alçaq nəzərlə baxmaq, onu "primitiv" bir şey kimi qiymətləndirmək meyli bir zərərli ənənəyə çevirməkdə idi. Şərq xalqlarının mədəniyyətinə və xüsusən də musiqisinə yuxarıdan "ağayana", "hakim" münasibət özünü hər addımda büruzə verirdi. Gah birinin oxuduğu muğamı ağlamağa oxşadırdılar, gah da o birinin səsini meymun səsi ilə müqasiyə edərək, yalnız ayrı-ayrı ifaçılara qarşı deyil, bütün xalqa qarşı təhqiramiz mövqe tuturdular. Üzeyir Hacıbəyli çox böyük mərdlik və cəsarətlə belə qərəzli, eyni zamanda miskin çıxışlara nifrət və qəzəblə cavab verir, həm birincilərin, həm də ikincilərin yalnış fikirlərini tutarlı arqumentlərlə rədd edirdi.

Böyük bəstəkar gənc publisist Əsəd Məmmədov – Əhliyevin "Kaspi" qəzetinin 27 oktyabr 1917-ci il tarixli sayında çap etdirdiyi məqaləsində opera, operetta, musiqili dram əsərlərini "səhnə sənətinin tərbiyəvi əhəmiyyəti ola biləcək ikinci, hətta üçüncü dərəcəli məhsulu" kimi dəyərləndirməsinə dərhal öz etirazını bildirmişdi. Üzeyir Hacıbəyli "Kaspi" qəzetinin 28 oktyabr 1917-ci il tarixli sayında dərc etdirdiyi "Səhnənin tərbiyəvi əhəmiyyəti haqqında" adlı məqaləsində Əhliyevin bu mülahizəsini "musiqi sənətinə qeyri-ciddi münasibət" adlandırmışdı. Bəstəkar ondan haqlı olaraq soruşurdu: "Musiqili əsərlərin tərbiyəvi əhəmiyyətini nəyə əsasən inkar edir və ya azaldırsınız? "Otello", "Faust", "Boris Qodunov" kimi operaların tərbiyəvi əhəmiyyəti etibarı ilə eyni adlı dram əsərlərindən nəyi əskikdir?" [11, 364].

M.İbrahimov bəstəkarın arqumentlərini layiqincə qiymətləndirmişdir: "Bu cavab Üzeyir Hacıbəyovun dərin bilik sahibi olduğunu, mühakimələrində son dərəcə güclü təfəkkürə və məntiqə əsaslandığını göstərir" [9, 387]. Görkəmli ədib burada bəstəkarın publisistik fəaliyyətinə də yüksək dəyər verdiyini vurğulamışdır.

Qeyd etmək lazımdır ki, Üzeyir Hacıbəyli sovet dövründə də opera və operettalarımıza qarşı hücumlara da dərhal kəskin cavab verməkdən çəkinmirdi. Böyük bəstəkar Azərbaycan SSR-in Xalq Maarif komissarı Mustafa Quliyevin "Kommunist" qəzetinin 3 sentyabr 1924-cü il tarixli 203-cü sayında dərc etdirdiyi məqaləsində bizim opera və operettalarımızın "bədii və və musiqi gözəlliklərindən məhrumdur, özlərinin şit məzmunları ilə nəinki xalqı, hətta

gənc səhnə xadimlərini tərbiyə edəcək səviyyədə deyillər" iddiasını [18, 203] rədd edərək, "Kommunist" qəzetinin 3 oktyabr 1924-cü il tarixli 220-ci sayında "Türk operaları haqqında" adlı məqaləsində yazmışdı: "... Azərbaycan səhnəsində və o səhnə vasitəsilə Azərbaycan türklərinin tərəqqi və tərbiyəsi işində az rol oynamayan türk opera və operettalarını bu gün vətəndaş Samitin (o zamankı Xalq Maarif komissarı Mustafa Quliyevin təxəllüsüdür – K.Ə.) istədiyi kimi səhnədən qaldırmaq Azərbaycan teatr və musiqi tarixinin mühüm səhifələrini cırıb atmaq deməkdir" [16, 372].

Qeyd etmək lazımdır ki, Üzeyir Hacıbəylinin ilk operası olan "Leyli və Məcnun" yaradılmasından 100 il keçdikdən sonra da Azərbaycan səhnəsində müvəffəqiyyətlə oynanılmaqdadır. Xalq yazıçısı Anar "Dahi bəstəkarımız" adlı məqaləsində bu məqamı məmnunluqla qeyd etmişdir ki, "Bu gün "Leyli və Məcnun" bəlkə öz dövründə olduğundan daha artıq müasir, təzə, təravətli səslənir və bütün bu ötən illər ərzində səhnəmizin bəzəyi olaraq qalır. ... Bugünkü dinləyici üçün "Leyli və Məcnun" da, digər muğam operalarımız da ... tamamilə müstəqil və orijinal, təkrarsız sənət hadisəsidir" [1, 12, 13].

M.İbrahimov haqqında bəhs etdiyimiz məqaləsində bəstəkarın Avropa musiqisindən bəhrələnməyin zəruriliyi haqqında fikirlərinə də geniş yer vermişdir. Bu da təbiidir. Üzeyir Hacıbəyli klassik musiqiyə böyük ehtiramla yanaşmaqla bərabər, eyni zamanda belə hesab edirdi ki, Azərbaycan musiqisinin gələcək inkişafı yeniliklərdən ustalıqla bəhrələnmək, Avropa musiqisinin nailiyyətlərindən səmərəli istifadə etmək bacarığından asılıdır. Üzeyir Hacıbəyli "biz Azərbaycan türklərinə "Ala franğa", yaxud bizlərdə "Yevropeyski" deyilən musiqini də öyrənmək lazımdırmı?" – sualına tam əminliklə müsbət cavab verirdi: "Bəli, lazım və vacibdir. Yəni o qədər vacibdir ki, bizim öz musiqimizin tərəqqisi bundan asılıdır" [12, 366].

Böyük bəstəkarın düşüncəsinə görə, belə olmazsa, Azərbaycan musiqi sənətinin zənginləşməsi baş verməz, bir nöqtədə donub qalar. "Musiqimizi yeni yola çıxarmaq lazımdır" – deyən bəstəkar bunun üçün "yevropeyski" adlanan musiqinin bir çox nailiyyətlərindən istifadə etmək gərək olduğunu göstərirdi. Üzeyir Hacıbəyli qeyd edirdi ki, Avropada "hər bir əsrə məxsus musiqi dahiləri və musiqi alimləri əmələ gəlib, öylə bir böyük və qiymətli əsərlər buraxıbdırlar ki, mədənilik iddiası edən heç bir millət bu əsərlərdən bixəbər və bibəhrə qala bilməz. ... Bu əsərlərdən bəhrə almaq və onları anlamaq üçün piano, vialon, fleyt və sairə kimi aləti-musiqiyyə məktəbinə ehtiyac vardır [12, 366]. Bəstəkarın fikrincə, Avropa musiqi alətləri və musiqi formalarından bəhrələnmək bizim əsrlər boyu yaranmış zəngin, ahəngdar musiqimizi yeni mərhələyə qaldırar, onun dünyada yayılmaq imkanlarını xeyli genişləndirər və musiqi mədəniyyətinin bütün sahələrində bizim özümüzü göstərməyimizə, "Şərq musiqisini məktəb vasitəsilə tərəqqi etdirib qərb musiqisinin bu gün işğal etməkdə olduğu uca mərtəbələrə qədər irəlilətməyimizə" [16, 371] səbəb olar.

Bu, məsələnin bir tərəfidir. O biri tərəfi isə yeni yaradıcılıq axtarışlarıdır.

Bu axtarışlar köhnə şəkillərin təkrarından ibarət ola bilməz. Yalnız klassik irsə həssas, yaradıcı münasibət əsasında novator əsərlər, yeni bədii vasitələr meydana çıxa bilir. Ü.Hacıbəyli qürurla qeyd edirdi ki, Azərbaycan musiqisi çox zəngindir: "Avropa musiqisində 24 qamma vardır, bunun əvəzində bizdə 120 qamma vardır. Bu cür zəngin irsə malik xalq öz musiqi yaradıcılığını inkişaf etdirir" [10, 359].

M.İbrahimovun fikrincə, novatorluq üçün, bəstəkarlarımızın fərdi xüsusiyyət və istedadlarının hərtərəfli inkişafı, yeni böyük sənət əsərləri yaratmaları üçün bizim milli musiqi irsimiz, demək olar ki, hələ əl vurulmamış bir xəzinədir. Böyük yazıçı belə cəsarətli mülahizəni Ü.Hacıbəyli yaradıcılığına əsaslnaraq irəli sürmüşdür. Ü.Hacıbəyli "Şərq musiqisi haqqında qərb alimlərinin təfsiri" adlı məqaləsində qeyd etmişdir ki, "qammın bir hissəsindən 7 və digər böyük hissəsindən 12 növ dəyişikliklər etməklə 7 kərə 12-dən ibarət olan 84 növ muğam əmələ gəlirmiş" [14, 391]. Azərbaycan xalq musiqisinin dərin bilicisi olan Ü.Hacıbəylinin bu mülahizəsi məşhur rus sovet bəstəkarı Dmitri Şostakoviçin heyrətinə səbəb olmuşdu. M.İbrahimov bununla bağlı Dmitri Şostakoviçin qiymətli fikirini xatırlatmağı vacib saymışdır. Görkəmli rus sovet bəstəkarı "Дружба народов" jurnalının 1957-ci il 11-ci nömrəsində çap etdirdiyi məqalədə yazmışdır: "Öz tədqiqlərinin birində Üzeyir Hacıbəyov Azərbaycan xalq musiqisində 84 müxtəlif laddan istifadə olunduğunu qeyd edir. 84! Azərbaycan folkloruna məxsus gözəllik və xüsusiyyətin kökü buradadır" [19, 244; 6, 232].

M.İbrahimov daha sonra bu mülahizəni xəlqilik və novatorluqla bağlı mübahisələrə aydınlıq gətirmək üçün dəyərləndirir: "Şostakoviçin bu fikiri bir daha göstərir ki, çox zəngin olan və yaradıcılığın hissiyatına, zövqünə, fikir və xəyallarına bollu qida verən Azərbaycan xalq musiqisi daha həssas münasibətə layiqdir" [ 6, 232]. Görkəmli yazıçı çox haqlı olaraq qeyd edirdi ki, xəlqilik sənətkarın bütün varlığından doğur, xalqın həyatı, keçmişi və gələcəyi ilə nə dərəcədə bağlı olmasını əks etdirir. Yazıçı, rəssam və bəstəkar həm xalq həyatını, həm də xalqın tarixini, mədəniyyətini, dilini dərindən öyrənməlidir.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində**


1. Anar. Dahi bəstəkarımız / Üzeyir Hacıbəyov ensiklopediyası. Bakı: Şərq-Qərb, 2007, s.10-16.
2. Aşıq Ələsgər. Əsərləri, dastan-rəvayətlər, xatirələr. Toplayıb tərtib edəni, ön söz və qeydlərin müəllifi İslam Ələsgər. Bakı: Şərq-Qərb, 1999, 578 s.
3. Əmirov F. Üzeyir məktəbi / Musiqi aləmində. Bakı: Gənclik, 1983, s.142-150
4. İbrahimov M. Sənətin qüdrəti. Əsərləri 10 cilddə, X c. Bakı: Yazıçı, 1983, s.99-104.
5. İbrahimov M. Dramaturgiya, konflikt, gözəllik. Əsərləri 10 cilddə. X c. Bakı: Yazıçı, 1983, s.138-158.
6. İbrahimov M. Bir-birinə bağlı iki keyfiyyət. Əsərləri 10 cilddə. X c. Bakı: Yazıçı, 1983, s.225-234.
7. İbrahimov M. Azərbaycan Bülbülü. Əsərləri 10 cilddə. X c. Bakı: Yazıçı, 1983, s.304-310
8. İbrahimov M. Xalqın böyük bəstəkarı. Əsərləri 10 cilddə. X c. Bakı: Yazıçı, 1983, s.346-366.
9. İbrahimov M.Üzeyir Hacıbəyov sənət və sənətkarlıq haqqında. Əsərləri 10 cilddə. X c. Bakı: Yazıçı, 1983, s.384-405.

10. Hacıbəyli Ü. Muğamat və xalq mahnılarının ifası haqqında. Seçilmiş əsərləri. 2 cilddə. II c. Bakı: Şərq-Qərb, 2005, s.357-363.
11. Hacıbəyli Ü. "Səhnənin tərbiyəvi əhəmiyyəti haqqında". Seçilmiş əsərləri. 2 cilddə. II c. Bakı: Şərq-Qərb, 2005, s.364.
12. Hacıbəyli Ü. Vəzifəyi-musiqimizə aid məsələlər. Seçilmiş əsərləri. 2 cilddə. II c. Bakı: "Şərq-Qərb", 2005, s.365-369.
13. Hacıbəyli Ü. Azərbaycanda musiqi təhsili. Seçilmiş əsərləri. 2 cilddə. II c. Bakı: Şərq-Qərb, 2005, s.369-372.
14. Hacıbəyli Ü. Şərq musiqisi haqqında qərb alimlərinin təfsiri. Seçilmiş əsərləri. 2 cilddə. II c. Bakı: Şərq-Qərb, 2005, s.388-393.
15. Hacıbəyli Ü. Azərbaycanda musiqi təhsili. Seçilmiş əsərləri. 2 cilddə. II c. Bakı: Şərq-Qərb, 2005, s.372-375.
16. Hacıbəyli Ü. Türk operaları haqqında. Seçilmiş əsərləri. 2 cilddə. II c. Bakı: Şərq-Qərb, 2005, s.369-372.
17. Hacıbəyli Ü. Musiqidə xəlqilik. Seçilmiş əsərləri. 2 cilddə. II c. Bakı: Şərq-Qərb, 2005, s.401-404.
18. Üzeyir Hacıbəyov ensiklopediyası. Bakı: Şərq-Qərb, 2007, 264 s.

**Rus dilində**

19. Шостакович Д. Отличная композиторская школа // журн. «Дружба народов», 1957, №11, с.242-245

## МИРЗА ИБРАГИМОВ И ВОПРОС О НАРОДНОСТИ В АЗЕРБАЙДЖАНСКОЙ МУЗЫКЕ

**К.Г.АЛИЕВА**

### РЕЗЮМЕ

В статье исследуется дискуссия о народности, о взаимосвязи ее с классическим наследием и новаторством, а также взгляды М.Ибрагимова по этим вопросам. Писатель на основе многогранной деятельности У.Гаджибейли и Бюль-Бюля отмечал, что противопоставление народности и новаторства в азербайджанской музыке, в целом, ошибычно. Наоборот, именно эти аспекты взаимосвязаны и поднимают на более высокий уровень азербайджанскую музыку.

**Ключевые слова:** народ, музыка, национальные ценности, У.Гаджибейли, Бюль-Бюль, народность, новаторство, мугам, певец.

## MIRZA IBRAHIMOV AND THE PROBLEM OF NATIONAL CHARACTER IN THE AZERBAIJANI MUSIC

**K.G.ALIYEVA**

### SUMMARY

The presented article investigates M.Ibrahimov's attitude towards the debates connected with national character, innovation and classical legacy in the Azerbaijan national music. On the base of analyses of rich creative legacy of U.Hajibayli and Bulbul, it is noted that it would be wrong to contradict national character and classical legacy. These two aspects are interconnected and raise the Azerbaijan music to the top.

**Key words:** people, music, national values, U.Hajibayli, Bulbul, national character, innovation, mugham, singer.